TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________ E.M.Ağayev

________________________ 2023-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**UBİXİNON KOMPOZİTUM** əzələdaxili, dərialtı, dəridaxili inyeksiya üçün məhlul
UBICHINON COMPOSITUM

**Tərkibi**
*Təsiredici maddələr:* 2,2 ml (=2,2 q) həcmində 1 ampulun tərkibində vardır: Ubichinonum D10 22 mq; Acidum ascorbicum D6 22 mq; Thiaminum hydrochloricum D6 22 mq; Natrium riboflavinum phosphoricum D6 22 mq; Pyridoxinum hydrochloricum D6 22 mq; Nicotinamidum D6 22 mq; Vaccinium myrtillus D4 22 mq; Colchicum autumnale D4 22 mq; Podophyllum peltatum D4 22 mq; Conium maculatum D4 22 mq; Hydrastis canadensis D4 22 mq; Acidum sarcolacticum D6 22 mq; Hydrochinonum D8 22 mq; Acidum alpha-liponicum D8 22 mq; Sulfur D8 22 mq; Manganum phosphoricum D8 22 mq; Natrium diethyloxalaceticum D8 22 mq; Trichinoylum D10 22 mq; Anthrachinonum D10 22 mq; Naphthochinonum D10 22 mq; para-Benzochinonum D10 22 mq; Adenosinum triphosphoricum D10 22 mq; Coenzymum A D10 22 mq; Galium aparine D6 22 mq; Acidum acetylosalicylicum D10 22 mq; Histaminum D10 22 mq; Nadidum D10 22 mq; Magnesium gluconicum D10 22 mq.
*Köməkçi maddələr*: natrium xlorid, inyeksiya üçün su.

**Təsviri**
Şəffaf, rəngsiz məhluldur.

**Farmakoterapevtik qrupu**
Homeopatik dərman vasitəsi. Bütün digər terapevtik məhsullar.
**ATC kodu:** V03A.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Tək təsiredici maddələrin klinik təsvirinə əsaslanan homeopatik dərman maddələrinin və dərman vasitələrinin təsir mexanizmi, təbii özünü tənzimləmə proseslərin dəstəklənməsi və ya modulyasiyası ilə izah edilə bilər.
***Farmakokinetikası***
Homeopatik dərman vasitələrində, adətən, potensiya olunmuş təsiredici maddələr olur. Homeopatik təsiredici maddələrin və homeopatik preparatların dozadan asılı təsirləri olmadığından, farmakologiya ilə əlaqəli farmakokinetik profili haqqında məlumat yoxdur.

**İstifadəsinə göstərişlər**
Qüsurlu ferment funksiyaları və degenerativ xəstəliklərdə (hüceyrə fazaları) süstləşmiş ferment sistemlərini yenidən aktivləşdirmək üçün toksinlərə qarşı müdafiə mexanizmlərinin stimullaşdırılması.

**Əks göstərişlər**
Preparatın tərkibində olan komponentlərdən hər hansı birinə qarşı allergiya (yüksək həssaslıq).

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Əgər simpomlar davam edərsə və ya daha da pisləşərsə, həkimə müraciət etmək lazımdır.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Heç bir qarşılıqlı təsir qeydə alınmamışdır və homeopatik durulaşdırılmalar səbəbilə hər hansı qarşılıqlı təsir gözlənilmir. Həkiminiz son vaxtlarda qəbul etdiyiniz bütün dərman vasitələri ilə bağlı (hətta onlar reseptsiz buraxılan dərman vasitələri olsalar da) məlumatlandırılmalıdır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Bu preparatda təqdim olunmuş maddələrin homeopatik həll edilmiş məhlullarının hamiləlik və laktasiya müddətində toksiki olmaları məlum deyil. Bütün dərman vasitələri kimi, hamiləlik və laktasiya dövründə bu preparatı istifadə etməzdən öncə öz həkiminizlə və ya müalicə edən mütəxəssislə məsləhətləşin.

**Nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə heç bir təsir göstərmir və homeopatik durulaşdırılmalar səbəbilə heç bir təsiri gözlənilmir.

**İstifadə qaydası və dozası**
*Digər təyinat yoxdursa*
*Standart doza*
Böyüklər və 12 yaşdan yuxarı uşaqlar üçün: 1 ampul həftədə 1-3 dəfə.
*Uşaqlar*
2-5 yaşlı uşaqlar: ½ ampul həftədə 1-3 dəfə.
6-11 yaşlı uşaqlar: ⅔ ampul həftədə 1-3 dəfə.
*Kəskin və ya başlanğıc doza*
Böyüklər və 12 yaşdan yuxarı uşaqlar üçün: Gündəlik 1 ampul, sonra isə standart doza ilə davam edilir.
*Uşaqlar*
2-5 yaşlı uşaqlar: gündəlik ½ ampul, sonra isə standart doza ilə davam edilir.
6-11 yaşlı uşaqlar: gündəlik ⅔ ampul, sonra isə standart doza ilə davam edilir.

*Şüşə ampulun açılma qaydası*



Ampulu əlinizdə tutun. Açılma təlimatını dəqiqliklə izləyin. Şüşə ampulu kəsmək lazım deyil. Bucaq altında ampulun başını tutun və ampulun yuxarı hissəsinə vuraraq məhlulu aşağıya doğru çalxalayın. Sonra rəngli nöqtə olan hissədən ampulun yuxarı hissəsini qırın. Artıq qalan hissələr atılmalıdır.

**Əlavə təsirləri**
Bütün dərman vasitələri kimi, bu dərman vasitəsinin də əlavə təsirləri ola bilər, lakin bu hamıda müşahidə olunmur.

**Doza həddinin aşılması**
Doza həddinin aşılması haqqında məlumat yoxdur və homeopatik durulaşdırılmalar səbəbilə heç bir hadisə gözlənilmir. Əgər tövsiyə olunan dozanı aşmısınızsa, həkimə müraciət edin.

**Buraxılış forması**
2,2 ml inyeksiya məhlulu, ampulda. 10 və ya 100 ampul içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**

25°C-dən yüksək olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
5 il.
Yararlılıq müddəti qablaşdırıldığı qutunun üzərində göstərilmişdir. Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Resept əsasında buraxılır.

**İstehsalçı/Qeydiyyat vəsiqəsinin sahibi**
Biologische Heilmittel Heel GmbH.
Dr.-Reckeweg-Str. 2-4
76532 Baden-Baden, Germany.

**Azərbaycanda rəsmi distribyuter:**
Planeta PCC.

-Heel